M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

*Dahi Azərbaycan şairi Nizami Gəncəvinin zəngin yaradıcılığı qarşısında heyrətlənən şərqşünaslar öz sələflərindən heç kimə bənzəməyib, bütün xələflərin üzərində dərin və silinməz bir təsir buraxan bu sənətkarın qüdrətini möcüzə kimi qiymətləndirirlər.*

Həmid ARASLI

# Ədəbiyyat QƏZETİ

ادبيات قزتى

www.edebiyyat-qazeti.com

Cümə, 5 oktyabr 2012-ci il № 37 (4840) 1934-cü ildən çıxır Qiyməti 30 qəpik

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin vətəni Gəncədə keçirilən 870 illik yubiley tədbirləri sentyabrın 30-da başa çatmışdır.

Şəhər ictimaiyyəti nümayəndələrinin və qonaqların iştirakı ilə keçirilən Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Himayədarlar Şurasının təsis yığıncağından sonra Gəncə

# Dahi Azərbaycan şairi Nizami Gəncəvinin Gəncədə başlayan 870 illik yubiley tədbirləri sentyabrın 30-da başa çatmışdır

şəhər İcra Hakimiyyətində dahi şairin 870 illik yubileyinə həsr edilmiş Beynəlxalq elmi-praktiki konfrans öz işinə başlamışdır.

Konfransı giriş sözü ilə Gəncə şəhər İcra Hakimiyyətinin başçısı Elmar Vəliyev açaraq dünyanın nadir şəxsiyyətlərindən olan Nizami Gəncəvinin bəşər tarixinə verdiyi əvəzsiz incilərdən danışmış, onun yaratdığı əsərlərin bundan sonra da min illərlə aktual olacağını diqqətə çatdırmışdır. Bildirmişdir ki, Nizami Gəncəvinin yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi, əxlaqi ideyalar parlaq şəkildə öz əksini tapmışdır. Dahi şair üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq olmuşdur. O, əsərlərində təsvir etdiyi hadisələri Azərbaycanla əlaqələndirməyə, doğma vətəni Azərbaycanı tərənnüm etməyə çalışmışdır. Bu baxımdan Nizami Gəncəvi yaradıcılığında Vətən məhəbbəti doğma xalq yolunda qəhrəmanlıq ideyası ilə birləşir. Buna görə də ümummilli lider Heydər Əliyev Nizami Gəncəvi yaradıcılığına çox böyük qiymət verərək deyirdi ki, bu əsər-



lər təkcə şeirdən ibarət deyildir. Onların hər birində böyük elm, fəlsəfə və dahi fikirlər vardır. Buna görə də onun əsərləri də, özü də yaşayır və yaşayacaqdır.

Ulu öndər Heydər Əliyev hələ 1975-ci ildə Nizami Gəncəvinin irsinin öyrənilməsi, təbliği ilə bağlı mühüm tədbirlər görmüş, 4 mühüm sərəncam imzalamışdır. Dahi şairin irsinin öyrənilməsinə diqqət və qayğı bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Sonra Baş nazirin müavini, xalq yazıçısı Elçin Əfəndiyev çıxış edərək yubiley münasibətilə bütün Azərbaycan xalqını təbrik etmiş və demişdir ki, Nizami Gəncəvi yaradıcılığı tədqiqatçılar üçün böyük yaradıcılıq mənbəyidir. Əsrlər, qərinələr bir-birini əvəz etsə də, Nizami irsi hələ də tədqiqat mövzusu olaraq qalacaq. Onun yaradıcılığı ilə təkcə Şərq tədqiqatçıları deyil, eyni zamanda Avropa şərqşünasları da məşğul olmuşlar. Bu da onu göstərir ki, Nizami yaradıcılığı Şərqlə Qərbin fəlsəfi, bədii estetik sintezi, vəhdətidir. O, bir tərəfdən Aristoteli, Platonu mənimsəmişdirsə, o biri tərəfdən də Firdovsini, İbn Sinanı mənimsəmişdir. Bu baximdan mütəfəkkir şairin dünyagörüşündə bu iki aləmin vəhdəti yaranmışdır. Nizami yaradıcılığının gücü, qüdrəti onda idi ki, hansı mövzuya yanaşırdısa, həmin möv-

zunu özününkü edirdi.

Sonra Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimov, mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və təhsil naziri Misir Mərdanov məruzə ilə çıxış edərək Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi ilə bağlı ölkə başçısı tərəfindən imzalanmış sərəncamı milli-mədəni irsimizin qorunması, inkişaf etdirilməsi və gələcək nəsillərə ötürülməsi sahəsində dəyərli töhfə olduğunu qeyd etmişlər. Demişlər ki, dahi şairin əsərləri dünya ədəbiyyatı xəzinəsinin ən qiymətli incilərindəndir. Bu əsərlər bəşəriyyətin yetişdirdiyi böyük dühaların yaratdığı ölməz abidələr arasında özünə ən layiqli yeri tutur. Nizami Gəncəvi müstəsna şəxsiyyətdir ki, xalqımızın soykökünə xas olan ən yaxşı xüsusiyyətləri - istedad, ağıl, vicdan, şərəf, bəsirət və uzaqgörənlik kimi xüsusiyyətləri özündə birləşdirir.

Natiqlər daha sonra demişlər ki, bu gün dahi söz ustadının 870 illik yubileyinə uzaq ölkələrdən də çoxlu sayda tanınmış alimlər gəlmişdir. Bu da onu göstərir ki, Nizami yaradıcılığı bu gün də aktualdır və dünya xalqları onu qəbul edir, əsərlərini böyük həvəslə oxuyur, tədqiq edirlər.

Konfransda Misirin İsgəndəriyyə kitabxanasının direktoru, Misir Elmlər Akademiyasının prezidenti İsmayıl Seragəldin, Latviyanın sabiq prezidenti xanım Vaira Vike-Freiberg, Qırğızıstanın sabiq prezidenti, professor Roza Otunbayeva, Birləşmiş Millətlər Təşkilatının Elektron Hökumət Komissiyasının sədri Valter Füst, Türkiyənin sabiq mədəniyyət naziri Namik Zeybək, İngiltərə Kral Akademiyasının rəhbəri, Oksford Universiteti Linkoln Kollecinin professoru Baronessa Susan Greenfield və başqaları çıxış edərək Şərq xalqlarının ədəbiyyatına son dərəcə yüksək humanist ideyalar və yeni sənətkarlıq nailiyyətləri gətirərək yeni istiqamət açan dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığını təhlil etmiş, xalq yaradıcılığından bəhrələnməklə möhtəşəm əsərlər yaratdığını diqqətə çatdırmışlar.

YUNESCO-nun Azərbaycan Milli Komissiyasının birinci katibi Günay Əfəndiyeva qurumun baş katibi İrina Bokovanın və Türkiyə Respublikasının 9-cu Prezidenti Süleyman Dəmirəlin təbrik məktublarının mətnlərini oxuduqdan sonra konfrans öz işinə yekun vurmuşdur.

Sonra Gəncə şəhər İcra Hakimiyyəti ilə Misirin İsgəndəriyyə, Türkiyə, Gürcüstan və Kəşmir Milli kitabxanaları arasında əməkdaşlıq haqqında niyyət protokolu və Gəncə şəhəri ilə Tacikistanın Xocənd şəhəri arasında "Qardaşlaşmış şəhərlər" sazişi imzalanmışdır. Bununla da Nizami Gəncəvinin vətəni Gəncədə başlanan yubiley tədbirləri başa çatmışdır.

# Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi ilə bağlı bəyanat yaymışdır




Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəl dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi ilə bağlı bəyanat yaymışdır.

S.Dəmirəlin bəyanatında Nizami Gəncəvinin bəşəriyyət tarixində xüsusi yeri olan dahi şair, mütəfəkkir və alim olduğu vurğulanır. Bildirilir ki, gələcək nəsillərə zəngin mənəvi miras qoyan şairin fəlsəfi düşüncələri, ibrət dolu nəsihətləri bu gün də yaşayır. Nizami sülhü, sevgini, xeyirxahlıq və qardaşlığı təbliğ etmişdir. Onun yaradıcılığı təkcə Azərbaycanda deyil, bütün dünyada böyük maraqla öyrənilir. Nizami Gəncəvi, eyni zamanda, türk dünyasının mədəniyyətinin təşəkkül tapmasında misilsiz xidməti olan böyük şəxsiyyətdir.

Türkiyənin sabiq Prezidenti dahi Nizaminin adını yüksəklərdə tutan Azərbaycan rəhbərliyinə təşəkkürünü ifadə etmiş, onun xatirəsinin hər zaman milyonların qəlbində yaşayacağını bildirmişdir.

**Oqtay Bayramov**
*AzərTAc-ın xüsusi müxbiri*
*Ankara*

# YUNESCO-nun baş direktoru dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə bəyanat yaymışdır

YUNESCO-nun baş direktoru İrina Bokova dahi Azərbaycan şairi Nizami Gəncəvinin anadan olmasının 870 illik yubileyi münasibətilə bəyanat yaymışdır.

AzərTAc xəbər verir ki, bəyanatda deyilir: "Dahi şair və mütəfəkkir Nizami Gəncəvi ümumbəşəri dəyərə malik bir alimdir. Bu il onun 870 illik yubileyinin keçirilməsi mədəniyyətlərarası dialoqa bir çağırışdır və YUNESCO təşkilatı bu yubileydə iştirakdan çox böyük şərəf hissi duyur.

Nizami yaradıcılığı bəşəriyyətin müxtəlifliyini, bilik və kamillik yolu ilə zamanın axarını dəyişməyə çalışmasını təbliğ edir, ləyaqətli, ədalətli və ahəngdar bir cəmiyyətə səsləyir.

Onun əsərləri mədəniyyətin xalqlar arasında körpü salmasını və ictimai şüuru təcəssüm etdirir. Hələ o dövrlərdə Nizami Gəncə şəhərinin kitabxanalarından, İslam dünyasının hər bir tərəfindən olan əsərləri - tərcümələri, qədim əsərlərin təfsirlərini, müxtəlif dillərdə olan poemaları və elmi işləri əldə edə bilirdi. XII əsrdə olduğu kimi, bu günümüzdə də bu mədəni müxtəliflik bir imkan kimi hesab oluna bilər. Mədəniyyətlərin yaxınlaşmasına öz töhfəmizi vermək üçün mədəni, eyni zamanda, mövcud bilik mübadiləsini genişləndirməklə birgə işləyə bilərik.

Heç şübhəsiz Nizaminin ədəbi irsi Azərbaycan, Mərkəzi Asiya və digər ölkələrdə insanların həyatına çox böyük təsir göstərmişdir. "Ruhumu sevgiyə qərq edin" humanist çağırışı yaşadığımız qeyri-müəyyən zaman üçün bir ilhamdır. Bu çağırış "Sülhün müdafiəsi xanımların və kişilərin şüurlarında qurulmalıdır" kimi UNESCO-nun yaradılma konsepsiyasını özündə əks etdirir. Bu xüsusda Nizami irsinin və xatirəsinin əbədiləşdirilməsi ilə bağlı Azərbaycanın dövlət qurumlarının və Gəncə şəhərinin səylərini ürəkdən alqışlayıram".



## Yaddaş



*Aida İMANQULİYEVA*

# Nizami və nəzirəçiləri

*M.Kazımov: "Nizaminin "Yeddi gözəl" əsəri və XIV-XVI əsrlərin farsdilli ədəbiyyatında nəzirə ənənələri" (rus dilində). "Elm" - 1987*

***Oktyabrın 10-da görkəmli şərqşünas alim, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor qadın olan Aida İmanquliyevanın dünyaya gəlişindən yetmiş üç il keçir.***

***Aida xanıma həsr olunmuş "Dünya deyilən sənmisən..." adlı sanballı kitabda verilmiş materialların birində oxuyuruq: "1975-ci ildə Akademiyanın "Elm" nəşriyyatı Aida İmanquliyevanın "Cübran Xəlil Cübran" adlı kitabını Azərbaycan dilində çapdan buraxanda onun haqqında "Ədəbiyyat və incəsənət" qəzetində geniş bir məqalə çap olunur. Həmin məqalədə müəllif Aida xanımın ərəb məhcər ədəbiyyatının tədqiqinin yeni sahə olduğunu və bu sahədə Aida xanımın "Cübran Xəlil Cübran" kitabının bahar müjdəsi ilk qaranquş təsiri bağışladığını qeyd edirdi".***

***Məlum olduğu kimi, Aida xanım özü "Ədəbiyyat qəzeti"nin unudulmaz, mötəbər müəlliflərindən biri olmuşdur.***

***Nizami Gəncəvinin 870 illiyini geniş qeyd etdiyimiz bu tarixi günlərdə Aida İmanquliyevanın dahi şairə dair kitab barədə vaxtilə qəzetimizdə dərc olunmuş "Nizami və nəzirəçiləri" adlı məqaləsini ("Ədəbiyyat və incəsənət", 22 may 1987-ci il) əziz oxuculara məmnuniyyətlə təqdim edirik.***

Böyük Azərbaycan şairi Nizami Gəncəvinin həyat və yaradıcılığı haqda həm ölkəmizdə, həm də xaricdə maraqlı monoqrafiyalar yazılmış, tədqiqatlar aparılmışdır. Lakin şairin yaradıcılığının kompleks, çoxcəhətli təhlili hələ də gələcəyin vəzifəsidir. Bu sahədə görüləsi işlər çoxdur. Bu vəzifələr barədə Azərbaycan KP MK-nın Nizami irsinə həsr olunmuş qərarında da konkret göstərişlər vardır.

Təkcə onu demək kifayətdir ki, son vaxtlara qədər bizdə "Yeddi gözəl"in elmi-tənqidi mətni yox idi, bu poemanın daha dərindən tədqiqi üçün ayrıca tədqiqatlar aparılmırdı. Halbuki bu əsər öz ideya-bədii orijinallığına görə dünya ədəbiyyatının misilsiz hadisələrindən biridir. Bu baxımdan M.Kazımovun kitabının aktuallığı diqqəti çəkir.

Hələ XIII əsrdə hind şairi Əmir Xosrov Dəhləvi öz böyük sələfinə nəzirə olaraq "Xəmsə" yazıb Nizami mövzularında nəzirəçiliyin əsasını qoymuşdur. Əmir Xosrovun ardınca Hacı Kirmani, Əşrəf Marağayi, Cami, Məktəbi, Hatifi kimi şairlər azərbaycanlı mütəfəkkirin süjet və motivləri əsasında əsərlər yaratdılar.

Nizaminin Şərq ədəbiyyatına təsiri geniş və səmərəli olmuşdur. "Xəmsə"-yə nəzirə olaraq yazılan əsərlərin sayı bir neçə yüzə qədərdir. Bu əsərlər tacik, gürcü, özbək, fars, türk, kürd, həmçinin Hindistan xalqları ədəbiyyatlarında meydana çıxmışdır. "Yeddi gözəl"in təsiri ilə yaradılmış bir çox nümunələri təhlil edən tədqiqatçı bu nümunələrə orta əsr ədəbi ənənələri fonunda qiymət verməyə çalışır, Nizami təsirinin yolları və formaları üzərində səmərəli müşahidələr aparır.

Böyük şairimizin yaratdığı "Xəmsə"-nin ideya-estetik zənginliyi misilsizdir. Nizami Gəncəvi burada dövrün mütərəqqi meyllərinin oyanmasında və istiqamətlənməsində ciddi əhəmiyyət kəsb edən çoxlu fəlsəfi, etik, sosial və estetik məsələlər qoymuşdur. Bu məsələlər bu gün də öz əhəmiyyətini saxlamaqdadır. Nizami Gəncəvi irsinin bu cəhəti, ən əvvəl, şairin ən istedadlı davamçılarının diqqətini cəlb etmişdir. Tədqiqatda mövzunun bu baxımdan açılmasına ciddi zəhmət sərf olunmuşdur.

"Yeddi gözəl"ə həsr edilmiş tədqiqatlar sırasında M.Kazımovun əsəri, birinci növbədə, nəzəri xarakteri ilə seçilir. Burada "Yeddi gözəl" bir neçə poetika məsələsi işığında araşdırılır, onun janr mürəkkəbliyi, buradakı zaman və məkan formaları nəzərdən keçirilir. Nizami motivlərinin davamı olan səciyyəvi əsərlərin təhlili nəticəsində müəllif nəzirənin bir ədəbi hadisə kimi tipik xüsusiyyətlərini, mövzuya münasibətin özünəməxsusluğunu göstərməyə çalışır.

Nəzirənin tipoloji xüsusiyyətlərini müəyyənləşdirmək üçün orijinal əsərin özü də sistemli tədqiq edilməlidir. Tədqiqatda, hər şeydən əvvəl, "Yeddi gözəl" süjetlərinin mənbələrini bərpa etməyə təşəbbüs edilir və bu mənbələr iki qrupa bölünür: yazılı və folklor. Belə ki, Təbərinin "Tarix-ərrəsul vəl müluk", Firdovsinin "Şahnamə" kimi mənbələr əsas süjetin, əlavə novellalar isə sehirli nağılların modeli üzrə qurulmuşdur.

Poemanın ideya məzmununda didaktik məqamlar qabarıq şəkildə özünü hiss etdirir. Onlar baş qəhrəmanın xarakterinə də təsir göstərir. İdeal şah konsepsiyasının inkişafı olan bu məsələ bütün "Xəmsə"dən qırmızı xətt kimi keçir.

Nizami əsərin baş qəhrəmanını Bəhram şahın timsalında ədalətli hökmdar barədə arzularını ümumiləşdirmiş, öz siyasi idealını cazibədar bədii formada təqdim etmişdir. Bunu xüsusi qeyd edən M.Kazımov Bəhram obrazını bədii-estetik və ideya-siyasi baxımdan geniş və hərtərəfli təhlil etmişdir. Obrazın ideya məzmununu açan müəllif inandırıcı surətdə göstərir ki, bu obraz əsərin bütün quruluşunu müəyyən edən əsas kimi poemanın yerdə qalan komponentlərini özünə uyğunlaşdırmışdır.

Böyük şairimizin əsərindəki əlavə novellalar həm ideya-bədii, həm də sosial-fəlsəfi planda xüsusi əhəmiyyət kəsb edir. Bu novellalarda orta əsr gerçəkliyi, şəhər əhalisinin məişəti və adət-ənənəsi özünün maraqlı ifadəsini tapır. Elmi ədəbiyyatda geniş şərh olunmuş bu novellalara həsr edilmiş səhifələr maraqla oxunur. Bunun səbəbi odur ki, müəllif özündən əvvəl deyilənləri təkrarlamadan məsələyə məxsusi münasibətini tapmağa çalışır.

Monoqrafiyada "Yeddi gözəl"in janr baxımından təhlili də maraq doğurur. Əsərin janrca çoxtərkibli xarakteri burada geniş elmi təhlilini tapır. Əsərdə bir tərəfdən qəhrəmanlıq eposuna və romana, o biri tərəfdən isə qəhrəmanlıq nağıllarına məxsus elementlər vardır. Müəllifin fikrincə, burada mənzum povest elementləri də vardır. Tədqiqatda əsərin quruluşundakı çox maraqlı və mürəkkəb poetika xüsusiyyətləri araşdırılır.

Əsərin maraqlı xüsusiyyətlərindən biri də poemanı zaman və məkan poetikası baxımından təhlil etmək təşəbbüsüdür. Nizami əsəri bizim ədəbiyyatşünaslıqda bu baxımdan ilk dəfə tədqiqata cəlb olunur. Belə bir istiqamətdəki təhlil, ümumiyyətlə, orta əsr epik ədəbiyyatında insan obrazının daha dərin anlayışı üçün əhəmiyyət kəsb edir.

Nəzirə ənənələri ilə haşiyəli povestin qarşılıqlı münasibətləri də ciddi məsələlərdən biridir. Bu məsələni nəzərdən keçirməzdən əvvəl müəllif haşiyəli povestin Qərb və Şərq analoqlarını nəzərdən keçirir, onun şəkilcə təkamülünü izləyir, həmçinin bu formanın farsdilli ədəbiyyatdakı bir sıra gözəl nümunələrini nəzərdən keçirir.

Bəhram haqqında təhkiyə ümumilikdə orta əsr müəllifinin yaradıcılıq metodunun xüsusiyyətlərini, təsvir prinsiplərini açıqlamaq üçün açar rolunu oynayır. Bu baxımdan novellalar da xeyli material verir. Belə bir istiqamətdə təhlil orta əsr novellaçılığının bir sıra məsələlərini də əhatə etmişdir.

Əgər nəzirə ənənəsi bir sıra şərtlərə əməl olunmasını tələb edirsə, bu şərtlərin sözlə əsərdə ifadəsi hər bir müəllifin fərdi işi idi, onun istedadı, şeir texnikasına bələdliyi ilə şərtlənirdi. Belə bir planda aparılan müqayisəli tədqiqat "Yeddi gözəl" süjetinin nəzirə çərçivəsində təkamülünü izləməyə imkan vermişdir. Müəllif mətndə ədəbi portretin, mənzərələrin, dil vasitələrinin rolunu xüsusi qeyd edir. Nəzirənin özünəməxsusluğu məhz bu komponentlərdə daha qabarıq ifadə olunur.

Nizami "Xəmsə"sinin hər səmərəli tədqiqi böyük Azərbaycan klassikinin irsinin zənginliyini öyrənməkdə daha bir addımdır. Bu mənada M.Kazımovun monoqrafiyası da istisna təşkil etmir. Yəqin ki, müəllif gələcək tədqiqatlarına XVII-XVIII əsrlərin materiallarını, "Xəmsə"nin başqa mətləblərini də cəlb edəcəkdir.